www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-04 (1765) 28 fevral 2023-cü il



# Xocalı soyqırımının ildönümü ilə bağlı tədbir keçirilib

**Rektor, professor Gəray Gəraybəyli: Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman ordumuz şəhidlərimizin qisasını aldı**

səh. 2

## “Heydər Əliyev İli”nə həsr olunmuş “Kolorektal Cərrahiyyə Günləri” keçirilib

səh. 3

## Akademik göstəriciləri yüksək olan 25 tələbə ödənişli təhsildən azad olunub

səh. 2

## Əməkdaşların pedaqoji peşəkarlığının inkişafına diqqət yetirilir

səh. 5



## ATU və USAİD əməkdaşlığa başlayır

Beynəlxalq qurumun nümayəndə heyəti universitet rəhbərliyi ilə görüş keçirib

səh. 2

## Azərbaycanda kök hüceyrələri ilə bağlı vəziyyət necədir?

*ATU-nun alimləri ağlasığmaz imkanlar vəd edən bu sahə haqda fikirlərini açıqlayıblar*

səh. 4

## Peşəkar həkimliyin bir addımlığında

*Rezidentlərimiz bir sıra əməliyyatları sərbəst icra edir*

səh. 5



## Hər kəlməsi “Vətən” şəhidimiz

Tibb xidməti baş leytenantı Nurlan Fərəməzov yaralı əsgərə yardım göstərərkən şəhid olub

səh. 6

# Xocalı soyqırımının ildönümü ilə bağlı tədbir keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman ordumuz şəhidlərimizin qisasını aldı



**Azərbaycan tarixinin ən ağrılı səhifələrindən biri olan Xocalı soyqırımından 31 il ötdü. Bu münasibətlə Azərbaycan Tibb Universitetində tədbir keçirilib.**

Tədbiri açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli Xocalı soyqırımını dünyada baş verən ən qəddar və amansız qırğınlardan biri kimi qiymətləndirib: "Ölkəmizin hər yerində olduğu kimi, universitetimizdə də Xocalı faciəsinin xalqımızın hüzn günü olaraq qeyd edilməsi bir tarixi ənənəyə çevrilib. Lakin ötən dövrlərdən fərqli olaraq artıq iki ildir ki, biz tarixi faciələrimizi yeni formatda qeyd edirik. Belə toplantılara tələbələrin qatılması çox əhəmiyyətlidir. Çünki tariximizi müxtəlif təbliğat vasitələrindən istifadə etməklə gənc nəslin yaddaşına həkk etməliyik.

Tariximizə nəzər yetirdikdə görürük ki, Azərbaycan xalqının yaşadığı faciələri, soyqırımları, qətliamları bəlkə də heç bir xalq yaşamayıb. Bütövlükdə xalqımıza qarşı yönəlmiş Xocalı soyqırımı ağlasığmaz qəddarlığı və qeyri-insaniliyi ilə bəşər tarixində az rast gəlinən vəhşiliklərdən biridir. Xocalı soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı cinayətdir. Bu faciədə düşmənlərimizin əsas məqsədi xalqımızı sındırmaq idi. Lakin gün gəldi və qəhrəman oğullarımızın sayəsində qədim torpaqlarımızı işğaldan azad edə bildik".

Sözünə davam edən rektor bildirib ki, dünyanın gözü qarşısında baş verən bu soyqırımının əsl mahiyyəti Ulu Öndər Heydər Əliyev siyasi hakimiyyətə qayıtdıqdan sonra üzə çıxıb: "Ümummilli Lider bu amansız kütləvi qırğının tarixi-siyasi mahiyyətini açaraq Xocalı faciəsini erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsi adlandırmışdır. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Xocalı həqiqətlərinin, erməni vandalizminin dünya ictimaiyyətinə çatdırılması istiqamətində böyük işlər görürlər. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə dünyanın bir çox ölkələrində keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası öz əhatə dairəsini ildən-ilə genişləndirir.

Bu gün biz fəxrlə deyə bilərik ki, Xocalı şəhidlərinin qanı yerdə qalmayıb. 2020-ci il Vətən müharibəsində Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdı. 44 günlük müharibədə misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qalib gələrək bütün şəhidlərimizin qisasını aldı".

Sonra tədbir iştirakçıları Xocalıda şəhid olanların, eləcə də bu günlərdə qardaş Türkiyədə baş verən zəlzələ nəticəsində həyatını itirən insanların xatirəsini bir dəqiqəlik sükutla yad edib.

Bundan sonra Xocalı faciəsindən bəhs edən sənədli film nümayiş olunub. Filmdə erməni millətçiləri tərəfindən Xocalıda xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasətinin ən qanlı səhifəsi öz əksini tapıb. Belə ki, 1992-ci il fevralın 25-dən 26-a keçən gecə erməni quldur birləşmələri keçmiş sovet ordusuna məxsus 366-cı alayın əsgər və zabitləri ilə birlikdə 7 min nəfərədək əhalisi olan Xocalı şəhərini yerlə-yeksan edib, dinc əhalini, o cümlədən uşaqları, qadınları, qocaları ağlasığmaz vəhşiliklə öldürüblər.

Toplantıda çıxış edən ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov Xocalı soyqırımının tarixindən söz açıb, dinc insanların erməni təcavüzkarları tərəfindən vəhşicəsinə qətlə yetirildiklərini heç vaxt unutmamalı olduğumuzu vurğulayıb. O, Qarabağ həqiqətlərinin bundan sonra da beynəlxalq ictimaiyyətə çatdırılmasında gəncliyin üzərinə böyük məsuliyyət düşdüyünü bildirib.

Tədbirin sonunda tələbələrimizin Xocalı soyqırımına dair hazırladığı səhnəcik nümayiş olunub.

**ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) Azərbaycan üzrə missiyasının nümayəndə heyəti Azərbaycan Tibb Universitetində olub. Qonaqları salamlayan ATU-nun rektoru, professor Gəray Gəraybəyli universitetdəki tədris prosesi, o cümlədən yeni yaranan ixtisaslar, tədris proqramlarının təkmilləşdirilməsi, xaricdən tələbələrin cəlb olunması istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.**

# ATU və USAİD əməkdaşlığa başlayır

## Beynəlxalq qurumun nümayəndə heyəti universitet rəhbərliyi ilə görüş keçirib



Universitetimiz üçün beynəlxalq əlaqələrin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan rektor, USAİD-lə mümkün əməkdaşlıq istiqamətlərindən danışıb və bunun hər iki tərəf üçün faydalı ola biləcəyini nəzərə çatdırıb.

Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev bildirib ki, hazırda ATU-da 50 ölkədən 3000 əcnəbi tələbə və rezident təhsil alır: "Universitetimizdə 6 fakültə fəaliyyət göstərir, hər bir fakültə öz ixtisasına uyğun professor-müəllim heyəti ilə komplektləşib. Həmçinin universitet nəzdində 4 klinikamız var. Ölkədəki tələbata uyğun olaraq, ATU-da "Tibb bacısı" və "Fizioterapiya" ixtisasları da yaradılıb".

Prorektor qeyd edib ki, universitet olaraq USAİD-lə əməkdaşlıq bizim üçün çox önəmlidir: "Ümumdünya Səhiyyə Təşkilatı ilə səhiyyə menecmenti, ailə həkimi sahələri üzrə sıx əməkdaşlıq edir, birgə təlimlər keçiririk. Sizin qurumla da bir simulyasiya mərkəzinin yaradılmasını istərdik. Universitetimizin klinikalarında tədris treninq mərkəzləri fəaliyyət göstərir. Amma təbii ki, bu qədər tələbəsi olan universitetdə bəzən hər tələbəyə xəstə göstərmək mümkün olmur. Məhz buna görə və günümüzün reallığından çıxış edərək, simulyasiya mərkəzinin yaradılmasını planlaşdırırıq. Düzdür, ölkə rəhbərliyinin tapşırığı ilə başqa qurumların nəzdində belə bir mərkəz qurulub. Bizim tələbələrimiz də ora gedirlər. Amma əlçatanlıq və tədris prosesinin keyfiyyəti baxımından ATU-nun özündə simulyasiya mərkəzinin olması vacibdir".

USAİD Azərbaycan-ın Missiya direktoru Maykl Nirbas görüş üçün təşəkkür edərək, qarşılıqlı əməkdaşlığın faydalı ola biləcəyi fikrini dəstəklədiyini bildirib. O, USAİD-lə universitet arasında uyğun istiqamətlərdə fəaliyyətin qurulması üçün işçi qrupun təşkil olunmasını təklif edib: "Bir müddət əvvəl ATU-da Təcili Yardım Sisteminin təkmilləşdirilməsi mövzusunda keçirilən simpoziumda mən də iştirak etmişdim. Həmin tədbirdə də bildirmişdim ki, təcili yardım sisteminin gücləndirilməsi USAID-in Azərbaycanla tərəfdaşlığının əsas məqsədlərindən biridir. Bu istiqamətdə, eləcə də adlarını çəkdiyiniz yeni ixtisaslarla bağlı sizə dəstək olmağa hazırıq".

Səmərəli müzakirə şəraitində keçən və ilkin razılaşmalarla yekunlaşan görüşdə ATU-nun Ümumi işlər üzrə prorektoru Nizami Adilov, Tədris departamentinin müdiri, dosent Kamandar Yaqubov, İnnovasiya şöbəsinin müdiri Aygün Babayeva, Mətbuat xidmətinin rəhbəri Günel Aslanova, USAİD Azərbaycan-ın Layihələr şöbəsinin direktoru Angelina Allen-Mpyisi, layihələrin idarəolunması üzrə mütəxəssis Emin Məmmədli, ABŞ səfirliyinin təhsil üzrə mütəxəssisi Ramina Murşudova da iştirak ediblər.



# 25 tələbə ödənişli təhsildən azad olunub

## Şəffaf müsabiqə prosesi nəticəsində akademik göstəriciləri yüksək olanlar seçilib

**ATU-nun rektoru, professor Gəray Gəraybəyli 2022-2023-cü tədris ilində dövlət sifarişi üzrə boş qalan yerlərə keçən tələbələrlə görüşüb. Son illər universitetimizdə müxtəlif kurslar üzrə ödənişli əsaslarla təhsil alan tələbələrin bir qisminin dövlət hesabına təhsil almasına imkan yaradılır. Bu il də ödənişli əsaslarla təhsil alan və akademik göstəriciləri yüksək olan 25 tələbə dövlət sifarişi əsasında təhsil formasına keçirilib.**

Tələbələrlə görüşdə rektor G.Gəraybəyli bu münasibətlə onları təbrik edib, daha böyük uğurlar arzulayıb. O digər ali təhsil müəssisələrində olduğu kimi, ATU-da da tələbələrin həm dövlət sifarişli, həm də ödənişli əsaslarla təhsil aldıqlarını bildirib: "Hər il dövlət sifarişi əsasında təhsil alan tələbələr arasında müxtəlif səbəblərdən təhsilini saxlayanlar olur. Bununla əlaqədar artıq neçə ildir ki, Səhiyyə Nazirliyi və Elm və Təhsi Nazirliyi arasında qarşılıqlı razılığa əsasən boş qalan yerlərə ödənişli əsaslarla oxuyan tələbələrin arasından ən yaxşı akademik nəticəsi olanlar keçirilir. Bu il də tam şəffaf formada aparılan müsabiqə prosesi nəticəsində 25 tələbənin dövlət sifarişi əsasında təhsil formasına keçirilməsi baş tutub".

Rektor qeyd edib ki, dövlət sifarişi əsasında təhsil ailələrin maddi yükünü azaldır, tələbənin təhsilə marağını daha da stimullaşdırır. Bildirilib ki, hazırda ATU-da tələbələrin 80 %-i dövlət hesabına, 20%-i isə ödənişli əsaslarla təhsil alır.

# Fəal tələbələrə sertifikatlar təqdim edilib



**Azərbaycan Tibb Universiteti öz tələbələrinin beynəlxalq standartlara uyğun keyfiyyətli təhsil alması ilə yanaşı, həm də onların ictimai fəallığının artması üçün şərait yaradılmasına çalışır. Bu fikir rektor, professor Gəray Gəraybəylinin aktiv tələbələrlə görüşündə səslənib.**

Professor Gəray Gəraybəyli hər il fevral ayında universitet həyatında aktiv iştirak edən, universitetdə gedən sosial-ictimai proseslərdə fərqlənən və şəxsi davranışı, təhsili ilə seçilən tələbələrin təltif olunmasının artıq ənənəyə çevrildiyini bildirib. Professor qeyd edib ki, hər il fevral ayında qeyd olunan Gənclər Günü gənc nəslin ictimai həyatımızda rolunun artmasına kömək etmək, gənclərin potensiallarına diqqət çəkmək üçün bir imkandır: "Bu əlamətdar tarixi gün Ümummilli Lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verən Ulu Öndərin 1997-ci ildə imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycanda Gənclər Günü elan edilib. Ulu Öndərin siyasətini davam etdirən cənab Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində bu gün də gənclər siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm istiqamətlərindən biridir".

Ölkəmizdə gənclərin inkişafına yönələn fəaliyyətlərdən söz açan rektor, ATU-da son illər aparılan islahatlar və tətbiq edilən yeniliklər barədə də məlumat verərək, universitetimizin diplomlarının digər ölkələrdə tanınması üçün atılan mühüm addımlardan danışıb. O, tədris proqramlarımızın Azərbaycan səhiyyəsinin tarixində ilk dəfə olaraq Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentlik (IAAR) tərəfindən beynəlxalq akkreditasiyadan keçdiyini, ikili diplom proqramlarının tətbiqinə başlanıldığını xatırladıb: "Bundan əlavə, artıq 5 ildir ATU-da tələbə-dekanlar var, onlar universitetin şura toplantılarında iştirak edir, qaldırılan məsələlərlə bağlı tələbələrin səsi olaraq, fikirlərini bildirirlər. Mən çalışıram ki, universitetdə dəyişiklikləri siz tələbələrin təklifləri, istəkləri əsasında həyata keçirim".

Professor Gəray Gəraybəyli iki il öncə Azərbaycana möhtəşəm zəfəri yaşadanların da əsasən gənclər olduğunu vurğulayaraq, bir daha görüş iştirakçılarını təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonda fəal tələbələrə sertifikatlar təqdim edilib.

# "Heydər Əliyev İli"nə həsr olunmuş "Kolorektal Cərrahiyyə Günləri" keçirilib




**Fevralın 18-19-da Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti və Azərbaycan Kolorektal Cərrahiyyə Dərnəyinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Kolorektal Cərrahiyyə Günləri" tədbiri keçirilib.**

"Baku Marriott Hotel Boulevard"da baş tutan konfransda giriş nitqi ilə çıxış edən ATU-nun Elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov 2015-ci ildə yaradılan ilk Azərbaycan Kolorektal Cərrahiyyə Cəmiyyətinin fəaliyyəti haqqında tədbir iştirakçılarına məlumat verib. Bu cəmiyyətin 2016-2018-ci illərdə elmi seminarlar, praktiki kurslar və digər aktiv işlər apararaq kadr potensialının inkişafında mühüm rol oynadığını vurğulayıb. Qurumun həm də Avropa Kolorektal Cəmiyyətinə üzv seçildiyini söyləyərək qeyd edib ki, elmi araşdırmalarımız ən yüksək impakt faktorlu jurnallarda dərc olunur və bu istiqamətdə fəaliyyətimiz davamlı olacaq. Kolorektal Cəmiyyətin gənc həkimlərin praktiki fəaliyyətinə təkan verəcəyinə əminliyini deyən prorektor, çıxışının sonunda tədbir iştirakçılarına Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin salamlarını çatdırıb və konfransın işinə uğurlar arzulayıb.

Bundan sonra çıxış edən Azərbaycan Kolorektal Cəmiyyətinin sədri, professor Xaləddin Musayev dərnəyin beynəlxalq əlaqələrindən, ilk növbədə Türkiyə Kolorektal Cərrahiyyə Dərnəyi ilə sıx işbirliyindən söhbət açıb. Bildirib ki, ölkəmizdə həkimlik fəaliyyəti ilə məşğul olan mütəxəssislərimiz qardaş Türkiyənin nüfuzlu universitetlərində kolorektal cərrahiyyə üzrə təhsil alaraq daim təkmilləşirlər. Dərnəyin apardığı seminarlara dünyanın məşhur mütəxəssislərinin dəvət olunduğunu deyən professor, həmçinin xarici ölkələrdə təcrübə keçən kolorektal cərrahlarımızın əhaliyə yüksək səviyyəli tibbi xidmət göstərdiyini söyləyib.

Daha sonra Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov, komitənin üzvü İlham Məmmədov, Türkiyə Kolorektal Dərnəyinin sədri, professor Ayhan Kuzu və Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri Kamran Musayev çıxış edərək konfransın işinə uğurlar arzulayıblar.

Çıxış edənlər Qardaş Türkiyədə baş verən dəhşətli faciənin acısını da bölüşərək, həyatını itirənlərə rəhmət, yaralılara şəfalar diləyib, Azərbaycan həkimlərinin zəlzələ bölgələrində yaralılara təmənnasız tibbi xidmət göstərməsini qardaşlıq borcu kimi dəyərləndiriblər.

İki gün davam edən konfransda kolorektal cərrahiyyənin aktual problemlərinə dair Türkiyə və Azərbaycan mütəxəssislərinin elmi məruzələri dinlənilib.

**Yanvarın 27-də Azərbaycanın İran İslam Respublikasındakı səfirliyinə terror hücumu zamanı səfirliyin bir əməkdaşı şəhid, eləcə də yaralılarımız oldu. Yaralılarımıza tibbi xidmət göstərilməsi və onların nəzarət altında ölkəmizə təxliyəsi üçün Azərbaycan Tibb Universitetinin 6 nəfərdən ibarət həkim qrupu hadisə yerinə göndərildi.**



# Bir qrup əməkdaşımıza təşəkkürnamə verilib

Reanimatoloq, ortopedik travmatoloq, üz-çənə və ümumi cərrahların daxil olduğu həkim qrupu müəyyən risklərə baxmayaraq, yaralılara lazımi tibbi yardımı təmin etdi və onların ölkəmizə gətirilməsində fədakarlıq göstərdi.

Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universitetinin rektorluğu və universitetin Həmkarlar İttifaqı onların əməyini diqqətdən kənarda qoymayıb. Belə ki, bu günlərdə qrup üzvlərinə xüsusi təşəkkürnamələr təqdim olunub.

# Direktor tanınmış həkimi təbrik edib



**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsinin müdiri, dosent Qurban İsmayılovun 50 yaşı tamam olur. Klinikanın direktoru Mücahit Avcıl tanınmış həkimi bu münasibətlə təbrik edərək, ona plaket təqdim edib.**

M.Avcıl şöbə müdirinin yüksək fəaliyyət göstəricilərinə malik olduğunu vurğulayıb: "Sizin kimi həkimlərə, müəllimlərə ehtiyacımız var. Xəstələrdən sizin işinizlə bağlı məmnuniyyət reaksiyaları alırıq. Ümid edirəm ki, bundan sonra da klinikamızda şöbənizin nümunəvi fəaliyyəti ilə seçilənlər arasında olacaqsınız".

Oftalmologiya şöbəsinin müdiri Qurban İsmayılov xoş sözlər və göstərilən etimad üçün klinikanın direktoruna təşəkkür edib.

Qeyd edək ki, Q.İsmayılov mütəmadi olaraq aztəminatlı ailələr, tələbələr, şəhid və qazi ailələri üçün təmənnasız göz əməliyyatları aksiyaları həyata keçirir. Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsi daim öz həkim briqadası və texnoloji avadanlıqları ilə seçilib. Şöbədə hər cür müasir avadanlıqlar quraşdırılıb və bütün zəruri əməliyyatlar icra edilir.

Biz də öz peşəkarlığı və yüksək şəxsi keyfiyyətləri ilə seçilən həkimimizi təbrik edir, ona uğurlar arzulayırıq!

# 51 rezident imtahanda müvəffəqiyyət qazanıb

**Fevralın 17-də Azərbaycan Tibb Universitetinin İmtahan Mərkəzində 2021/2022-ci tədris ilinin məzun rezidentləri üçün yekun attestasiyanın test mərhələsi, fevralın 23-də isə yekun attestasiyanın praktiki komponent mərhələsi keçirilib.**



ATU-nun Rezidentura və magistratura şöbəsinin müdiri, tibb elmləri doktoru, professor Məlahət Sultanovanın bildirdiyinə görə, yekun attestasiyanın test mərhələsinə buraxılan 60 rezidentdən 7-si imtahana gəlməyib: "İmtahanda iştirak edən 53 rezidentdən 2-si imtahandan keçə bilməyib, 51-i müvəffəqiyyət qazanaraq, yekun attestasiyanın praktiki komponent mərhələsinə buraxılıb. Bir nəfər rezidentin 2022-ci ilin noyabrında test mərhələsindən keçdiyini nəzərə alaraq, praktiki komponent mərhələsinə buraxılan 52 rezidentdən 1-i imtahanda iştirak etməyib. Bu mərhələdə iştirak edən 51 rezident isə hər iki mərhələdə müvəffəqiyyət qazanıb".

# Biokimya kafedrasında fərqli mövzuda seminar



**ATU-nun Biokimya kafedrasında "Heydər Əliyev İli"nə həsr olunmuş elmi-praktik seminar keçirilib.**

Seminarı kafedranın professoru Tahirə Əsgərova açaraq bildirib ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan olunub: "Bütün təhsil müəssisələrində bununla əlaqədar müxtəlif tədbirlər həyata keçirilir. Ulu öndərimizin adı ilə bağlı olan bu günkü seminarımız dosent Akif Hacıyevin müasir elmi yanaşmalarına həsr olunub".

A.Hacıyev məruzəsinə başlamazdan öncə qeyd edib ki, o, 1981-1986-cı illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində təhsil alıb. 1989-1992-ci illərdə həmin universitetin Genetika və seleksiya kafedrasında "Biokimya" ixtisası üzrə aspiranturanı bitirib. Sovet dövründə azərbaycanlı tələbələrin Rusiyada qabaqcıl təhsil almasının səbəbkarı Ulu öndərimiz Heydər Əliyev olub: "Məhz onun təşəbbüsü ilə Moskvanın müxtəlif ali məktəblərində çoxsaylı tələbələr təhsil alıb. O cümlədən Biokimya kafedrasının müdiri, professor Gülnarə Əzizova da M.V.Lomonosov adına Moskva Dövlət Universitetində təhsilini başa vurub. Hətta Heydər Əliyev Moskvada təhsil alan tələbələrlə görüşərək onlara tövsiyələrini verib. Bu faktları Ümummilli Liderin təhsilə göstərdiyi diqqətin daha bir nümunəsi saya bilərik".

Daha sonra dosent Akif Hacıyev "Matriks biosintezi haqqında müasir təsəvvürlər" adlı məruzə ilə çıxış edib.

**Bu il Azərbaycan Tibb Universitetində ölkənin ilk təcili tibb təhsili üzrə kurasiya proqramı fəaliyyətə başlayacaq. Proqramın kurikulumunun hazırlanması üçün USAID/Azerbaijanın dəstəyi ilə keçirilən 3 günlük seminar yekunlaşıb.**

# İlk təcili tibb təhsili üzrə kurasiya proqramı fəaliyyətə başlayacaq



Seminarda səhiyyə nazirinin müavini Nadir Zeynalov, Ümumdünya Səhiyyə Təşkilatının ekspertləri, ATU-nun müxtəlif kafedralarından rəhbər nümayəndələr və təcili tibbi yardım xidmətləri üzrə seçilən həkim qrupunun üzvlərindən ibarət 33 ekspert 4 işçi qrupu tərkibində bacarıq əsaslı kurikulumun yaradılması üçün müzakirələr aparıb. Proqram ambulans və xəstəxanalarda yüksək səviyyəli təcili tibbi yardım üçün gərəkli insan resurslarını gücləndirməyə xidmət edəcək.

Qeyd edilib ki, seminar USAID-in maliyyə dəstəyi ilə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və ATU-nun əməkdaşlığı ilə həyata keçirilən "Azərbaycanda pandemiyaya cavab tədbirləri" layihəsi çərçivəsində reallaşıb. Layihənin əsas fəaliyyət istiqamətlərindən biri kimi, təcili tibbi yardım sisteminin gücləndirilməsinə bundan sonra da dəstək göstəriləcək.

## Müasir cihaz sayəsində tiroid əməliyyatı səs tellərinə zərər vermir



**Müasir dövrdə əhali arasında yayılmaqda olan xəstəliklərdən biri də zob (düyünlü ur) xəstəliyidir. Universitetimizin Tədris Cərrahiyyə Klinikasının həkimlərinə də bu problemlə bağlı çoxsaylı müraciətlər olur. Bəzən dərman müalicəsi müsbət nəticə verməyəcəyi üçün xəstələr cərrahi əməliyyat edilir.**

Klinikanın cərrah-endokrinoloqu Azər Hümmətovun rəhbərliyi ilə bu günlərdə 47 yaşlı xanımda belə əməliyyat icra olunub. Belə ki, müayinələr nəticəsində çoxsaylı düyünlərin böyük ölçülü olduğu müəyyənləşib. Eutiroid vəziyyət yarandığına görə, əməliyyat aparılması qərara alınıb. Total tiroidektomiya əməliyyatı zamanı qalxanvari vəz tamamilə xaric edilib.

Tədris Cərrahiyyə Klinikasında bu növ əməliyyatlar artıq müasir metodlarla, neyromonitorinq cihazı vasitəsilə icra olunur. A.Hümmətovun sözlərinə görə, bu avadanlığın tiroid əməliyyatlarında böyük əhəmiyyəti var: "Qalxanvari vəzin kapsulunun arxa səthində qayıdan qırtlaq siniri keçir. Məhz bu sinir səs telini innervasiya edir. Biz bu cihaz vasitəsilə həmin sinirin hardan keçdiyini müəyyən edirik. Sinirə yaxınlaşan zaman cihaz bu barədə xəbərdarlıq etdiyindən, bu tip riskli əməliyyat daha rahat və fəsadsız icra olunur. Beləliklə də, xəstənin səs tellərində heç bir problem yaranmır".

Əməliyyat olunan xəstə isə həm uğurlu nəticəyə görə A.Hümmətova, həm də pasiyentlərin rahatlığı üçün hərtərəfli şərait yaradan klinika rəhbərliyinə təşəkkürünü bildirib. Əməliyyatdan sonra demək olar ki, ağrıları olmadığını deyən xanım, hər kəsi səhhətinə diqqət etməyə, vaxtında həkimə getməyə, lazım gəldikdə isə əməliyyatdan çəkinməməyə çağırıb.

Həkim bildirir ki, tiroid əməliyyatlarından sonra ən çox verilən suallardan biri qəbul ediləcək dərmanlarla əlaqədardır: "Təəssüf ki, tiroid əməliyyatı zamanı qalxanvari vəz tam çıxarılır. Və bu zaman əvəzedici hormon terapiyasına ehtiyac yaranır. Əməliyyatdan sonra xəstənin vəziyyətinə uyğun dərman və dozası seçilir".

**Bir sıra inkişaf etmiş ölkələrdə kök hüceyrələri ilə bağlı aparılan araşdırmalar, bu sahədə tətbiq olunan müasir texnologiyalar tibb sahəsində bir çox yeniliklərə səbəb olub. Mütəxəssislərin fikrincə, bu sahə inkişaf etdirilərsə, laboratoriya şəraitində yeni orqanların hazırlanması, sağalması çətin olan xəstəliklərin müalicəsi mümkün olacaq. Bəzi ölkələrin qanunvericiliyində embrional tədqiqatlar qadağan edilsə də, bəzilərində buna icazə verilir. Bəs ölkəmizdə bu sahədə vəziyyət necədir? Elmi araşdırmalar aparılırmı? Aparılırsa, nəticələr nədən ibarətdir?**
**Bu barədə "ARB-24" telekanalı maraqlı veriliş hazırlayıb.**

# Azərbaycanda kök hüceyrələri ilə bağlı vəziyyət necədir?

### ATU-nun alimləri ağlasığmaz imkanlar vəd edən bu sahə haqda fikirlərini açıqlayıblar







Universitetin Sitologiya, embriologiya, histologiya kafedrasının müdiri, professor Eldar Qasımovun bildirdiyinə görə, tədqiqatların hamısı hüceyrədən başlayır: "Yeni canlı həyatın varlığının əsası hüceyrədir. Məşhur alman alimi Rudolf Virxov bu sahədə çox böyük elmi tədqiqatlar aparıb. Onun ümumi qəbul olunmuş bir fikri var ki, "həyatı hüceyrədən kənarda axtarmaq ağılsızlıqdır".

Professor, bu sahədə aparılan tədqiqat işlərinin nəticələrinə əsaslanaraq, hüceyrənin tərkib elementlərinin ayrı-ayrı strukturlarına, onların bir-birləri ilə qarşılıqlı əlaqələri haqqında əldə olunan məlumatlara yenidən baxılması zərurətinin yarandığını qeyd edib: "Aparılan araşdırmalar onu göstərdi ki, Çernobıl hadisələri zamanı ən çox şüalanmaya məruz qalan kök hüceyrələri olub. Bu səbəbdən insanlarda qanyaranma pozğunluğu meydana gəldiyindən onların əksəriyyəti dünyasını dəyişdi. Təsəvvür edin, həmin insanların yaxın qohumlarının döş sümüyündən götürülmüş 5 ml hissə qırmızı sümük iliyinə əlavə edilsəydi, 10-12 günə onlarda qan yaranmasında heç bir problem olmazdı".

Kafedra müdiri kök hüceyrələrinin tətbiq olunduğu tibb sahələrindən söhbət açıb. Stomatoloji və digər sahələrdə əldə edilən uğur və yeniliklərə də toxunub: "Bəzi müəlliflər dişlərin əmələ gəlməsində hər şeyi kökünü əmələ gətirə bilmirdilər deyə, o dişlər funksional əhəmiyyət daşımırdı. Amma son vaxtlar ona da nail oldular.

Artıq bu sahədə elmi nailiyyətlər o qədər irəli gedib ki, xüsusi proqramlarla induksiya edilmiş kök hüceyrələrini çapıq nahiyəsinə yeridərək orada funksional ürək hüceyrələrini də əmələ gətirmək mümkün olub".

ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayevin bildirdiyinə görə isə, yeni kök hüceyrə texnologiyaları və yeni genetik molekulyar tədqiqatlar müasir tibbin təməlini təşkil edir: "Kök hüceyrələrindən orqanların alınması mümkün məsələdir. Hüceyrədən toxuma və orqan əmələ gəlir. Klinikada tətbiq olunmasa da, artıq kök hüceyrəsindən ürəyin və ürək əzələsinin alınması mümkün olub.

Əminliklə deyə bilərəm ki, xərçəng xəstəliyinin, onun inkişafının aradan qaldırılmasında kök hüceyrələri texnologiyalarının böyük rolu olacaq. Belə ki, bu xəstəliklərdə orqan transplantasiyası mühüm yer tutduğundan, donor problemi də aradan qalxacaq".

Dosent bəzi ölkələrdə kök hüceyrələri ilə bağlı kafedraların və departamentlərin fəaliyyət göstərdiyini də qeyd edib. Amma bunun bizim təhsil sistemimizdə proqramlara daxil edilməməsindən təəssüf hissi keçirdiyini gizlətməyib: "Qanunvericilikdə kök hüceyrələri texnologiyasının tətbiqi hələ tam əks olunmayıb. Bunun kliniki tətbiqi ilə bağlı qanunvericilikdə tənzimləmələr aparılmasına da böyük zərurət var. Ölkəmizdə hazırda kök hüceyrələri ilə bağlı elmi tədqiqatlar Genetik Ehtiyatlar, Molekulyar Biologiya və Biotexnologiyalar institutları və o cümlədən Səhiyyə Nazirliyinin müvafiq qurumlarında aparılır. Təəssüf ki, aparılan tədqiqatların vüsəti Azərbaycanın inkişaf tempinə uyğun deyil".

Mütəxəssisin sözlərinə görə, əksər ölkələrdə kök hüceyrə bankları fəaliyyət göstərir: "İnsanlar gələcəklərini orada təminat altına alırlar. Azərbaycanda da həm kök hüceyrə mərkəzinin, həm də kök hüceyrə bankının yaradılmasına böyük ehtiyac var".

# Dildə bədxassəli şiş əməliyyatı icra olunub

### Məhəmməd Davudov: Əməliyyatdan sonrakı patohistoloji müayinələrdə metastaz aşkar edilmədi

**Bu günlərdə ATU-nun Tədris Cərrahiyyə Klinikasında dildə bədxassəli şişin əməliyyatı icra olunub.**

Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Məhəmməd Davudovun sözlərinə görə, pasiyent onlara dilinin sol yan hissəsində bir xoranın, zədələnmə ocağının olması şikayəti ilə müraciət edib və bu zədələnmə ocağının bir müddət əvvəl əmələ gəldiyini deyib. Bundan sonra tibbi protokollara uyğun olaraq öncə pasiyentdən biopsiya götürülüb. Biopsiyanın nəticəsinə görə, dilin yastı epitelinin karsinoması diaqnozu təsdiqlənib: "Amma zədələnmə ocağı kiçik olduğu üçün biz bunu başlanğıc mərhələ dil xərçəngi kimi qəbul etdik və xəstəni əməliyyata hazırladıq. Zədələnmiş ocağın sağlam toxuma sərhəddində dilin hissəvi rezeksiyası əməliyyatını apardıq. Məlumdur ki, dil xərçəngi diaqnozu qoyulan xəstələrin boyun limfa düyünlərində metastaz riski yüksək olur. Bu riski nəzərə alaraq xəstəni KT müayinəsindən də keçirdik. Lakin kompüter tomoqrafiyası və klinik müayinədə böyümüş limfa düyünləri aşkar olunmadı".

M.Davudov bəzən belə xəstələrdə mikrometastaz adlandırılan hallara da rast gəlindiyini bildirib. Yəni radioloji və klinik müayinələr zamanı aşkarlanmasa da, boyundakı limfa düyünləri içərisində xərçəng hüceyrələrinin yayılma riski həmişə yüksək olaraq qalır: "Ədəbiyyat materiallarında bu riskin 40-60 faiz arasında olduğu yazılır. Məhz bu səbəbdən risk qrupu altında olan limfa düyünlərinin də çıxarılması əməliyyatını planladıq. Biz əməliyyat zamanı, ümumiyyətlə, ağız boşluğu selikli qişasının xərçəngində birincili şiş götürülərkən Frozen müayinəsi deyilən ekspress analiz üsulundan istifadə edirik. Bu üsul bizə bir çox imkanlar verir. İlk növbədə cərrahi sərhədlərin təmiz olmasına, orada şiş hüceyrələrinin qalmamasına əminlik yaranır. Əməliyyatın gedişində şiş götürülür və laboratoriyaya göndərilir. Təxminən 20-25 dəqiqə ərzində analizin cavabı gəlir. Əgər cərrahiyyə zonasının kənarlarında şiş hüceyrələri varsa, o zaman rezeksiya sahəsini daha da genişləndiririk. Tam radikal şəkildə şiş toxumasını götürürük ki, orada şiş hüceyrələri qalmasın. Bu üsulla həm birincili şişi, həm də boyun limfa düyünlərini götürərək əməliyyatımızı başa çatdırdıq".



Pasiyentin əməliyyatdan sonrakı vəziyyətinə də aydınlıq gətirən cərrah, patohistoloji müayinələr nəticəsində boyun limfa düyünlərində metastaz aşkar edilmədiyini, cərrahi kənarların da təmiz olduğunu vurğulayıb. Qeyd edib ki, xəstə əməliyyatdan sonra 2 gün stasionar müalicə alaraq, kafi vəziyyətdə evə buraxılıb və 3 aydan sonra kontrol müayinəyə gəlməsi tövsiyə olunub. Onu da xatırladıb ki, belə hallarda xəstə nəzarətdə saxlanılsa da, radioterapiyaya və kimyəvi dərman müalicəsinə ehtiyac qalmır. Xəstə ilk bir il müddətində 3 aydan bir, sonrakı ildə 6 aydan bir, əməliyyatdan iki il sonra isə ildə bir dəfə müayinə olunmalıdır. Çünki ağız boşluğu selikli qişası xərçəngi daha çox ilk iki il müddətində təkrarlana, yenidən əmələ gələ bilər. İki ildən sonrakı müddətdə təkrar əmələ gəlmə ehtimalı az olduğu üçün ildə bir dəfə müayinə kifayətdir.

**Əməkdaşımızın məqaləsi PubMed indeksasiyalı Q1 statusuna malik 7.68 impakt faktorlu nüfuzlu elmi jurnalda nəşr olunub.**

## Əməkdaşımızın elmi-tədqiqat işi nüfuzlu elmi jurnalda

Azərbaycan Tibb Universitetinin Əczaçılıq toksikologiysı və kimya kafedrasının müdiri, professor Eldar Qarayevin Avropa alimləri ilə birgə apardığı "LC-MS Based Phytochemical Profiling towards the Identification of Antioxidant Markers in Some Endemic Aloe Species from Mascarene Islands" ("Maskaren adalarından bəzi endemik aloe növlərində antioksidant markerlərin müəyyən edilməsi istiqamətində LC-MS əsaslı fitokimyəvi profilləşdirmə") adlı elmi-tədqiqat işi PubMed indeksasiyalı Q1 statusuna malik 7.68 impakt faktoru (Q1; IF 7.68) olan "Antioxydants" (Antioxidants, 2023, 12(1), 50; doi.org/10.3390/antiox12010050) jurnalında çap olunub. Sevindirici haldır ki, müəlliflərin arasında ATU-nun Əczaçılıq fakültəsinin məzunu, ə.ü.f.d. Elnur Eldar oğlu Qarayev də var.

# Uşaqlarda nevroloji xəstəliklər artır

## Professor Aytən Məmmədbəyli: Ana südündən məhrum olan uşaqlarda nevrozun yaranma ehtimalı yüksəkdir



**“Son illər uşaqlarda nevroloji xəstəliklərin sayında artımla yanaşı, xəstəliklərin əlamətləri və gedişində dəyişikliklər də müşahidə olunur. Bu, ekoloji gərginlik, stress faktorlarının artması və başqa ənənəvi səbəblərlə əlaqədardır. Eyni zamanda, təbabətin inkişafı uşaqlarda nevroloji xəstəliklərin vaxtında aşkar edilməsi və əksər hallarda səbəblərin dəqiq təyin olunmasına imkan verir”. Bunu ATU-nun Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli “Təbib” qəzetinə açıqlamasında söyləyib.**

Onun sözlərinə görə, müasir müayinə üsullarından dəqiq radioloji (pozetron emission tomoqrafiya, maqnit rezonans tomoqrafiya və s.), elektroneyrofizioloji (elektroensefaloqrafiya, elektroneyromioqrafiya və s.), biokimyəvi və nəhayət, son illər ölkəmizdə tətbiq olunan genetik müayinələr vaxtında düzgün diaqnoz qoyulmasına imkan yaradır. Həmçinin hamiləliyin ilk aylarından başlayaraq mama-genekoloqun, uşaq doğulandan sonra neonatoloqun nəzarəti, uşağın gələcək inkişaf etaplarında isə sahə həkiminin məsləhəti ilə nevroloqun və lazım gəldikdə uşaq psixoloqunun cəlb olunması çox vacibdir: “Uşaqlarda nevroloji xəstəliklərin kökü hamiləlik dövrünə gedib çıxır. Müasir təbabətin tövsiyəsinə əsasən, nikahdan əvvəl gələcək ata və ana həm ailələrdə ola biləcək genetik xəstəliklər, həm də bəzən gizli keçən infeksiyalar (VİÇ infeksiya, sifilis, TORCH infeksiya və s.) üzrə yoxlanmalıdır.

Hamilə qadın mama-ginekoloqun nəzarətində olmalı və rast gəlinə bilinən somatik xəstəliklərin profilaktika və müalicəsi aparılmalıdır. Alkoqollu içkilər, nikotin, narkotiklər, ciddi ehtiyac olmadıqda dərman preparatları istifadə olunmamalıdır. Doğum mütləq tibbi müəssisədə, mümkün qədər fizioloji üsulla baş tutmalıdır. Keysəriyyə əməliyyatı və başqa yardımlar qeyri-fizioloji sayılır və uşağın gələcək inkişafında müəyyən problemlər yarada bilər. Uşağın qidalanmasında ana südü çox vacib rol oynayır. Kafedramızın əməkdaşlarının tədqiqatları göstərir ki, ana südündən məhrum olan uşaqlarda gələcəkdə nevrozun əmələ gəlmə ehtimalı yüksəlir”.

Mütəxəssis bildirib ki, uşaqlarda nevroloji xəstəliklərin əlamətləri müəyyən yaş qruplarında müxtəlif olur və çox vaxt başqa xəstəlikləri xatırladır, yaxud onların nəticəsi olur: “Məsələn, baş ağrıları uşaqlarda əksər hallarda başqa xəstəliklərin simptomudur. Müalicə başlamazdan əvvəl xəstəliyin mümkün qədər səbəbi araşdırılıb diaqnoz dəqiqləşdirilməlidir. Müasir müalicə arsenalı zəngindir. Bura həm dərman preparatları ilə müalicə, həm fizioterapevtik üsullar, həm psixoloji yardım, həm də xalq təbabəti üsulları daxildir. Tibb elminin inkişafı həm də bəzi anadangəlmə genetik xəstəliklərə müalicə yolu açır. Ölkəmizdə müasir avadanlıqlar ilə təchiz olunmuş uşaq reabilitasiya mərkəzləri var. Orada müalicə massajı, müalicə bədən tərbiyəsi, müəyyən xüsusi aparatlar və xüsusi elektrofizioloji üsullarla müalicə aparılır. Düşünürəm ki, gələcəkdə gen mühəndisliyi yolu ilə genetik xəstəliklər həyatın ilk dövrlərində aşkarlana və tam sağalma ilə nəticələnə bilər”.

**Cari tədris ilinin qış sessiyasında ATU-nun Tibb və sağlamlıq elmləri təhsili kafedrasında iki istiqamətdə kurslar keçirilib. Bu haqda məlumat verən kafedranın müdiri, dosent Samir Cavadov “Pedaqoji peşəkarlığın inkişafı” adlı kursun universitet əməkdaşlarının pedaqoji inkişafına yönəldildiyini bildirib.**



# Əməkdaşların pedaqoji peşəkarlığının inkişafına diqqət yetirilir

## Tibb və sağlamlıq elmləri təhsili kafedrasında iki istiqamətdə kurslar təşkil olunub

Onun sözlərinə görə, bu kurs böyük və kiçik qruplarda müasir tədris metodlarının istifadəsi, öyrənmə nəzəriyyələrinin tədrisə tətbiqi, tədris proqramının öyrənmə hədəflərinə uyğun hazırlanması, təkmilləşdirilməsi, bacarıq dərslərinin, bacarıqlara uyğun düzgün qiymətləndirilmənin aparılması, eləcə də ölçmə-qiymətləndirmə üsullarından düzgün istifadə və digər mövzuları əhatə edib. 24 yanvar – 1 fevral və 2-10 fevral 2023-cü il tarixlərində keçirilən “Pedaqoji peşəkarlığın inkişafı” kursunda 3 qrup olmaqla, ümumilikdə 45 universitet əməkdaşı təlimlərə qatılıb.

Kafedrada 2-10 fevral tarixlərində keçirilən “Çoxseçimli sualların hazırlanması, tətbiqi və analizi” adlı kurs isə ekspertlərin təkmilləşdirilməsi üçün nəzərdə tutulub. Belə ki, kurs ölçmə-qiymətləndirmə nəzəriyyələri, öyrənmə hədəflərinin hazırlanması, yazılı sualların növləri, çoxseçimli sualların öyrənmə hədəflərinə uyğun hazırlanması, testlərin statistik analizinin aparılması üzrə həm nəzəri, həm də praktik biliklərə yönəldilmiş mövzuları özündə əks etdirib. Bu kursda 6 qrup olmaqla, ümumilikdə müxtəlif kafedraların test üzrə 100 nəfər eksperti iştirak edib.

Kursların sonunda bütün təlim iştirakçılara sertifikatlar təqdim olunub.

**Azərbaycan Tibb Universitetində rezidentura təhsili alanlar tibb ixtisasları üzrə baza ali təhsili əsasında həkim-mütəxəssis kimi hazırlanırlar. Onlar nəzarətində olduqları peşəkar həkimlərdən öyrəndikləri sahənin zəruri nəzəri, praktik biliklərini mənimsəyir, peşə vərdişlərini, müalicə metodlarını, tibbi yenilikləri və s. əxz edirlər.**

# Peşəkar həkimliyin bir addımlığında

## Rezidentlərimiz bir sıra əməliyyatları sərbəst icra edir



Universitetimizdə ictimai fəallığı ilə yanaşı, mənimsədiyi ixtisası dərindən öyrənməyə səy göstərən və aktivlik nümayiş etdirən rezidentlərimiz kifayət qədərdir. Onlardan bir neçəsini oxucularımızla da tanış etmək istərdik. Belə rezidentlərdən biri **Küşvər Seyidovadır.** O, 2013-cü ildə Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinə qəbul olunub. Elmi axtarışlarını davam etdirib və dəfələrlə Tələbə Elmi cəmiyyətlərində üz-çənə cərrahiyyəsi mövzusunda çıxış edib. 2017-ci ildə hazırladığı məruzə 1-ci yerə layiq görülüb və diploma təltif olunub. 2018-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirən K.Seyidova 2019-cu ildə Ağız və üz-çənə cərrahiyyəsi ixtisası üzrə rezidenturaya daxil olub: “2020-ci ildə Vətən müharibəsi zamanı ATU-nun Tədris Cərrahiyyə Klinikasında professor Çingiz Rəhimovun rəhbərliyi altında Ağız və üz-çənə cərrahiyyəsi şöbəsində yaralılarla işlədim, onların müayinə, müalicə və əməliyyatlarına qatıldım. Yerli və beynəlxalq konfranslarda iştirak və çıxışlar etmişəm. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan rezidentlərin 10-cu elmi-təcrübi konfransında “Müasir müharibələrdə üz-çənə nahiyəsinin odlu silahla yaralanmalarına yanaşma prinsipləri” mövzusu ilə plenar iclasda çıxış etdim və birincilik diplomu ilə mükafatlandırıldım. Hazırda rezidentura təhsilimin 4-cü ilindəyəm”.

K.Seyidova artıq sərbəst şəkildə ağıl dişlərinin çıxarılması, ağız boşluğunda olan kiçik ölçülü törəmələrin götürülməsi, əngdə və çənədə olan kistaların çıxarılması, haymorotomiya, irinli-iltihabi xəstəliklərin müalicəsi, yaraların birincili cərrahi işlənilməsi, üzdə olan kiçik ölçülü törəmələrin və xalların götürülməsi, blefaroplastika, üz nahiyəsinə lipofilinq, buxaq liposaksiyası əməliyyatlarını icra edə bilir.



Tədris Cərrahiyyə Klinikasının Travmatologiya və ortopediya şöbəsində fəaliyyət göstərən **Cahid Zeynalov** da həkim-rezidentlərimizdəndir. İlk əməliyyatı Karpal tunelə görə orta sinirin sərbəstləşdirilməsi əməliyyatı olub. Sonra isə Açıcı vətər bərpası əməliyyatını uğurla həyata keçirib.

C.Zeynalov icra etdiyi əməliyyatlar sırasında osteosintez, artroskopik, bud-canaq və diz oynağının total bud-canaq endoprotezləri, vətər təmiri və transferlərinin adını çəkib: “Etdiyim əməliyyatlarda heç bir problem olmayıb. Hazırda diz və bud-çanaq endoprotezi əməliyyatlarını icra edirik. Praktik təcrübə və vərdişlərimin artırılmasında mənə yaxından kömək edən müəllimlərimə - Cəfər Nəsirli, Nicat Səttarov, İsmixan Mətiyev, Fuad Əyyubov, Bəhruz Məmmədova minnətdarlığımı bildirirəm”.

**Nərminə Dəhazi** də daim öz üzərində işləyən, təcrübə və vərdişlərini genişləndirən rezidentlərdəndir. O, Mamalıq-ginekologiya ixtisası üzrə rezidenturanın 4-cü kursunda təhsil alır. Son 6 il ərzində ATU-nun Tələbə Elmi Cəmiyyətinin elmi konfranslarında iştirak edib, setifikatlarla təltif olunub: “Kuratorum I Mamalıq-ginekologiya şöbəsinin müdiri, professor Səadət Sultanovadır. Rezidentura təhsili dövründə müxtəlif klinikalarda ixtisasıma uyğun rotasiyalar keçmişəm. 2021-ci ilin noyabrından isə Milli Onkologiya Mərkəzində Onkoginekologiya ixtisası üzrə MOM Onkoginekologiya şöbəsinin rəhbəri Şəmistan Alıyevin rəhbərliyi altında təkmilləşmə proqramı keçirəm. ATUREK-10 Rezidentlərin Elmi Konfransının plenar iclasında “Operativ ginekologiyada müasir endoskopik cərrahiyyə” mövzusunda etdiyim çıxışa görə ATU rektoru, professor Gəray Gəraybəyli tərəfindən diploma layiq görülmüşəm”.

Nərminə həm tələbəlik, həm də rezidentura təhsili müddətində bir çox beynəlxalq elmi konqreslərdə, seminar və praktiki təlimlərdə iştirak edib, sertifikatlar alıb. Rezidenturanın 2-ci kursunda Səhiyyə Nazirliyinin nümayəndələri ilə birgə Böyük Britaniyada rezident-ginekoloq qismində təlimdə iştirak edib, Londonun tibb müəssisələri və tibb universitetlərinin fəaliyyəti ilə tanış olub. O artıq özünü təcrübəli rezident hesab edir. Bir ildən sonra sərbəst həkim kimi çalışacağına əmindir: “Rezidentura müddətində bir çox manipulyasiyaları, əməliyyatları sərbəst etməyi öyrəndim. Buna görə mama-ginekologiya üzrə rəhbərim, professor Səadət Sultanovaya, onkoginekologiya üzrə rəhbərim Şəmistan Alıyevə minnətdaram. Zərurət yarandıqda onlarla hər zaman məsləhətləşirəm”.





Şəhid məzunlarımız

# Hər kəlməsi "Vətən" şəhidimiz

## Tibb xidməti baş leytenantı Nurlan Fərəməzov yaralı əsgərə yardım göstərərkən şəhid olub

**Tibb xidməti baş leytenantı Nurlan Fərəməzov 2009-cu ildə Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə daxil olanda, ən böyük arzusu işğaldakı torpaqlarımızın azad edilməsi idi. Tovuz döyüşləri zamanı məzuniyyətdə olmasına baxmayaraq, evdəkiləri aldadaraq hərbi hissəyə qayıdıb. Döyüş zonasına getmək istəsə də, komandirləri icazə verməyib ki, məzuniyyətdəsən.**

Amma ona 44 günlük Vətən müharibəsində iştirak etmək nəsib olub. Döyüş zonasında çoxsaylı yaralılara ilkin tibbi yardım göstərərək həyata qaytarıb.

Oktyabrın 9-da Cəbrayılda gedən döyüşlər zamanı 28 yaşında şəhidlik zirvəsinə ucalıb. Bütün arzuları yarımçıq qalsa da, əsas arzusu gerçəkləşib. Vətən torpağı ordumuzun misilsiz qəhrəmanlığı sayəsində düşmən tapdağından azad edilib.

Nurlanın məzarı doğulduğu Astara rayonunun Təngərüd kənd qəbiristanlığındadır.

### "Heç nə olmayıbmış kimi, müharibəyə getdiyini dedi"

**Atası Əhliman Fərəməzov:**



- Mənim üçün onun haqqında danışmaq olduqca çətindir, amma fəxr edilməli oğul idi. Sakit təbiətli, təmkinli, savadlıydı. Dərslərini yaxşı oxuyurdu. Həm oxuduğu orta məktəbdə, həm universitetdə, həm də xidmət etdiyi hərbi hissədə özünə xətir-hörmət qazanmışdı.

Tibb Universitetini bitirəndən sonra Nurlanın təyinatını Gədəbəydə yerləşən N saylı hərbi hissəyə verdilər. 3 ildən sonra xidmətini Qazaxda yerləşən N saylı hərbi hissədə davam etdirdi. Səhhətində problem yarandığı üçün bir ay idi ki, ehtiyata buraxılmışdı. Amma buna baxmayaraq, Vətən müharibəsi başlayan kimi döyüşə yollandı. Çox vətənpərvər idi.

Tovuz döyüşləri zamanı 2 gün idi ki, məzuniyyətə gəlmişdi. General Polad Həşimovun, onunla bir yerdə xidmətdə olan Anar Novruzovun şəhid olduğunu eşidəndə, gecə səhərədək yatmadı. Bizi aldadıb, Tovuza getdi. Orada israrla cəbhə xəttinə getmək istəsə də, komandirləri qoymayıb ki, məzuniyyətdəsən.

Onda qorxu, çəkinmək yox idi. Sentyabrın 29-u müharibəyə gedəndə anası narahatlıqla ondan hara getdiyini soruşdu. Heç nə olmayıbmış kimi, müharibəyə getdiyini dedi. Anasına müharibə zamanı şəhidlik məqamına çatmağın özəlliklərindən danışdı. Demək, qismətində şəhidlik var imiş...

Müharibə vaxtı demək olar ki, hər gün zəng edərdi, danışardıq. Həmişə hər şeyin yaxşı olduğunu deyirdi. Həkim olduğu üçün döyüş gedən ərazidən uzaq olduğunu söyləyirdi. Amma elə deyilmiş. Sən demə, döyüş zonasına gedir, orada yaralılara tibbi yardım edirmiş.

Şəhid olmamışdan bir gün öncə də zəng elədi, danışdıq. Hər şeyin normal olduğunu dedi. Şəhid olmamışdan yarım saat qabaq isə bibisi ilə danışıb...

### "Gəlin gətirmək istəyirdim, qismət olmadı..."

**Anası Həqiqət Fərəməzova:**



- Nurlan mənim gözümün ağı-qarası, tək oğlum idi. Onu bu dünyada hamıdan çox istəyirdim. Çox ağıllı, tərbiyəli uşaq idi. Heç uşaqlıqda məni incitmədi. Bacılarını çox istəyirdi, onlara çox bağlı idi. Dənizi də çox sevirdi. Hər dəfə məzuniyyətə gələndə, dostları ilə dənizə gedərdi. Ordudan tərxis olunandan sonra Almaniyaya gedəcək, orada təhsilini davam etdirəcəkdi. Nurlanla bağlı çox arzularım var idi. Əsas arzularımdan biri isə onu evləndirmək, gəlin gətirmək idi. Amma çox təəssüf ki, heç birini reallaşdırmaq qismət olmadı, ürəyimdə qaldı.

Hər kəlməsi, hər sözü "Vətən" idi. Ona görə də müharibə başlayan kimi dedi ki, qala bilmərəm, getdi. Özü də həmişəlik getdi...

Oğlumla çox qürur duyuram. Doğrudur, onun itkisi çox ağırdır. Nurlan mənim hər şeyim, arxa-dayağım idi. Müharibə vaxtı mənimlə tez-tez danışardı. Həmişə də deyirdi ki, "mən döyüş gedən ərazilərdə deyiləm, uzaqdayam. Narahat olma, qayıdacağam". Amma qayıtmadı...

Fəxr edirəm ki, belə bir oğlum var.

### "Nurlan mənim üçün həmişə yaşayır, yaşayacaq da"

**Bacısı Aysel Əkbərova:**

- Nurlan haqqında saatlarla danışaram, heç yorulmaram. Nurlan mənim əvəzolunmaz qardaşım idi. Ona çox bağlı idim. Onunla nəfəs alırdım. İstəyirdik evləndirək, ailə, övlad sahibi olsun. Qismət olmadı.

Dostları onun haqqında həmişə ağızdolusu danışırlar. Xidmətdə olanda onu çox az görürdüm. O da məzuniyyətə gələndə. Ordudan tərxis olunanda deyirdim ki, indən sonra səni doyunca görəcəyəm. Təəssüf ki, düşündüyüm kimi olmadı. Onu axırıncı dəfə sentyabrın 28-də gördüm. Evimə qonaq gəlmişdi. Sentyabrın 29-u cəbhəyə yollandı. Arada zəngləşirdik. Telefonu çox vaxt söndürülmüş olurdu. Deyirdi, mənə görə narahat olmayın, vaxt tapan kimi, özüm sizə zəng edəcəm.



Nurlan oktyabrın 9-u şəhid olsa da, bu acı xəbəri oktyabrın 10-u səhər saatlarında aldım. Həmin an dünya başıma yıxıldı. Mənim üçün hər şey bitdi. Nurlandan sonra dünyam söndü.

Onun yerini heç kim verə və heç nə onu əvəz edə bilməz. O mənim tək dayağım, ümidim idi. İndi isə dayaqsız, ümidsiz qaldım. O, qızım Nazlını, Nazlı da dayısını çox istəyirdi. Onunla çoxlu oyunlar oynayırdı. Nurlanın yeri qəlbimdə başqadır. Həmişə də elə olacaq. Mən onun şəhid olduğunu heç vaxt qəbul edə bilmərəm. O mənim üçün həmişə yaşayır, yaşayacaq da! Ömrümün sonuna, son nəfəsimə kimi, bütün varlığımla onu yaşadacağam!

### "Onu həkim kimi yox, mühəndis kimi təsəvvür edirdim

**Xəqani Mahmudov (Təngərüd kənd orta məktəbinin direktoru):**

- Nurlan haqqında danışmaq mənim üçün şərəfdir. Çünki oxuduğu illər ərzində o, özünü intizamlı, dərsə davamlı şagird kimi aparıb. Adətən evin tək oğlanları bir az ərköyün olurlar. Nurlan da evin tək oğlu olmasına baxmayaraq, olduqca tərbiyəli idi. Onun üçün fənlər arasında heç bir fərq yox idi. Dərslərinin hamısını yaxşı oxuyurdu. Həmin dövrdə mən rəsm-xətt fənnini tədris edirdim. Nurlanın gözəl əl qabiliyyəti var idi. Onun dəst-xətini hər yerdə görmək olurdu. Hiss edirdim ki, digər şagirdlər də öz işlərini ona işlədirlər. Yaxşı çertyojlar çəkirdi. Fikirləşirdim ki, Nurlan gələcəkdə mühəndis ixtisasına üstünlük verər. Sonralar bildim ki, hərbi həkim olmaq istəyir. Hazırlaşdı, istəyinə nail oldu da. Vətən uğrunda gedən döyüşlərdə fədakarlıq göstərərək şəhidlik zirvəsinə ucaldı.

Məktəbimizdə onun adına guşə yaratmışıq. Nurlanın qəhrəmanlığından, keçdiyi nümunəvi döyüş yolundan şagirdlərə danışır, məlumatlar verir, həmişə xatirəsini ehtiramla yad edirik.

### "Taborumuz mühasirəyə düşmüşdü"

**Kapitan Mayis Məmmədov:**

- Nurlanla 2020-ci il sentyabrın 29-da bir yerdə cəbhəyə yollandıq. Əslən Astaradan olan polkovnik-leytenant Nail Orucovun komandir olduğu 1-ci taborda mən bölük komandiri, Nurlan isə tibb məntəqəsinin rəisi təyin olundu.

Füzulidən döyüşə başladıq, Cəbrayıla daxil olduq. Döyüşlərdə Nurlan fədakarlıq göstərərək yaralıları ölümün pəncəsindən xilas edirdi. Taborumuz çox irəli getdiyi üçün mühasirəyə düşmüşdük. Bu zaman düşmən top və minaatanlardan bizi atəşə tutdu. Yaralılarımız oldu. Nurlan ölüm təhlükəsinə baxmayaraq, onlara ilkin tibbi yardım edir, döyüş meydanından çıxarırdı.

Oktyabrın 9-u səhər araya sakitlik çökmüşdü. İki gün idi ki, ac-susuz idik. Mühasirədə olduğumuz üçün bizə çətinliklə ərzaq və su çatdırırdılar. Təpənin yanında oturmuşdum. Elə bu vaxt Nurlan yanıma gəldi. Hal-əhval tutdu, bir yerdə yemək yedik. Sonra tabor komandiri məni yanına çağırıb mühasirəni yarmağımızı tapşırdı. Çox keçmədi, yenidən atışma başladı. Nurlan bizdən bir az aralıda yaralının köməyinə tələsdi. Bu vaxt düşmənin minaatanlardan atdığı mərmi qəlpəsinə tuş gəldi və şəhidlik zirvəsinə ucaldı. Bu hadisə hamımızı çox üzdü. Lakin tez vəziyyəti ələ aldıq. Nurlanın qisasının alınmasına



and içdik. Mühasirəni yarıb Cəbrayılın azad olunması üçün döyüşü davam etdirdik. Sonra Qubadlıya daxil olduq və Gorusun sərhədinə qədər gedib çatdıq. Bu döyüşlərdə taborumuzun bir neçə əsgər və zabiti şəhid oldu.

### "Nurlanın şəhid olduğunu yuxumda gördüm"

**Tibb xidməti kapitanı Vüqar Ağayev:**




- Ağcabədidə yerləşən N saylı hərbi hissədə bir otaqda qalırdıq. Həyat dolu bir gənc idi. Sentyabrın 29-dan oktyabrın 4-ə qədər təlim keçdik. O mənimlə döyüşdə istifadə olunan taktikalar, yaralıların döyüş zonasından necə təxliyə edilməsi ilə bağlı biliklərini bölüşürdü. Mən hərbidən 16 il əvvəl ehtiyata buraxılmışdım. O isə hərbçi idi. Bildiklərini mənə həvəslə danışırdı. Qələbəyə böyük inamı var idi. Təlim zamanı öz əsgərlərini hazırlayır, onlara vəzifələrini izah edirdi. Vətən savaşında iştirak edəcəkdi deyə çox sevinirdi.

Oktyabrın 4-də ayrılmalı olduq. Mən Cəbrayıl, o isə Füzuli istiqamətindəki döyüşlərə getdi. Arada zəng edir, hal-əhval tuturdu. Oktyabrın 7-si saat 10-11 arası Füzulidə Nurlangilin taboru ilə bir yerdə olduq. Taborun komandiri Nail Orucovla görüşdüm və Nurlanı soruşdum. "Bir azdan gələcək", - dedi. Biz isə çıxmalıydıq. Nurlanı görə bilmədim, sanitar maşınına oturub Cəbrayıla yola düşdük. Həmin gün Cəbrayılda gedən ağır döyüşlərdə yaralandım. 12 yaralı ilə birgə Füzuli Diaqnostika Mərkəzinə gəldik. Orada huşumu itirdim. Səhər ayılanda görüm ki, Nurlan mənə 3-4 dəfə zəng edib. Ona geri yığdım, zəng çatmadı. Fikirləşdim ki, yəqin ön cəbhədə olduğu üçün telefonunu söndürüb. Bizi oradan Masallı Rayon Xəstəxanasına təxliyə etdilər. Nurlanın şəhid olduğunu yuxumda gördüm. Nurlangilin qonşusu olan bacıma zəng etdim. Kəndlərinə şəhid gəlib-gəlmədiyini soruşdum. Bacım ağlaya-ağlaya "Nurlanı gətirirlər", - dedi. Bu xəbərdən çox sarsıldım. Bir müddət özümə gələ bilmədim...

Nurlan Fərəməzovun şərəfli döyüş yolu, onun Vətən qarşısındakı xidmətləri dövlətimiz tərəfindən nəzərə alınıb. Sağlığında "Azərbaycan Ordusunun 100 illiyi", ölümündən sonra isə "Vətən uğrunda", "İgidliyə görə", Füzuli və Cəbrayılın azad olunmasına görə medalları ilə təltif olunub.

Torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş Nurlan və onun timsalında bütün şəhidlərimizin xatirəsi xalqımız tərəfindən əbədi yaşadılacaq!

**Qabil ZİMİSTANOĞLU**



# Ensefalit: növləri, simptomları və səbəbləri



**22 fevral – Ümumdünya Ensefalit Günü idi. Bu günün tarixi və eləcə də ensefalit xəstəliyi barədə ATU-nun Tədris Terapevtik Klinikasının Nevrologiya şöbəsinin müdiri, dosent Aygün Musayeva qəzetimizə geniş məlumat verib.**

A.Musayeva bildirib ki, ensefalit xəstəliyinin ölümcül təhlükəsi barədə maarifləndirmə və mümkün qədər yeni halların qarşısını almaq üçün 2013-cü ildə Ensefalit Cəmiyyətinin təşəbbüsü ilə bu gün təsis edilib: “Ensefalit əsasən beyin maddəsinin iltihabı ilə xarakterizə olunan xəstəlikdir. Hal-hazırda ensefalit yalnız yoluxucu deyil, həm də beynin infeksion-allergik, allergik və toksiki zədələnməsi hesab edilir. Ensefalitin səbəbləri müxtəlifdir. Beləliklə, ilkin ensefalitlərə gənə ensefaliti, herpetik ensefalit, Koksaki virusunun səbəb olduğu ensefalit daxildir. İkincili ensefalit keçirilmiş yoluxucu xəstəliklərin ağırlaşması hesab olunur: qrip, məxmərək, qızılca, suçiçəyi, leptospiroz və sair, həmçinin peyvənddən sonrakı ensefalit”.

Həkim deyib ki, ensefalitin klinik təzahürlərinin şiddəti və onların gedişi fərqli ola bilər: yüngül formalardan tutmuş, xəstəliyin 1-2-ci günündə ölümün baş verdiyi ağır formalaradək. İnkubasiya müddəti 2-3 gündən bir neçə həftəyə qədər dəyişə bilər: “İştahın azalması, yuxululuq, subfebril hərarət şəklində prodromal əlamətlər yaranır ki, bu da xəstəliyin başlanğıcında temperaturun kəskin artması fonunda baş verir. Ümumbeyin əlamətlərindən - qusma, qıcolmalar, yuxululuq, huşun pozulması kimi əlamətlər qeyd oluna bilər. Ocaqlı əlamətlər isə beyində patoloji dəyişikliklərin lokalizasiyasından asılıdır. Belə ki, ətraflarda əzələ zəifliyi, hissiyyat və koordinasiyanın pozulması, çəpgözlük, baxışın iflici, ikigörmə, eşitmə və görmə pozulmaları, həmçinin psixi pozulmaların inkişafı da mümkündür. Ağır hallarda isə ölümlə nəticələnə bilən mərkəzi mənşəli ürək və tənəffüs pozğunluqları yarana bilər”.



Mütəxəssis əlavə edib ki, ensefalitin hazırda ən çox yayılmış növlərindən biri gənə ensefalitidir: “Onun meydana gəlməsinin səbəbi gənə dişlədikdə qan dövranına daxil olan və mərkəzi sinir sisteminin hüceyrələrinə nüfuz edərək onlarda ciddi dəyişikliklərə səbəb olan virusdur. Gənə ensefalitinin ocaqları mülayim iqlim qurşağında, Qərbi Avropanın əksər hissəsini əhatə edən və daha Şərqdən Sakit Okeana qədər uzanan meşə və meşə-çöl rayonlarında geniş yayılıb. Xəstəlik qızdırma, intoksikasiya və sinir sisteminin zədələnməsi ilə xarakterizə olunur və iflicin inkişafına gətirib çıxarır”.

Ensefalitin diaqnoz və müalicəsindən də danışan Aygün Musayeva söyləyib ki, onun sağalması uzun müddət çəkə bilər. Ölüm tezliyi isə spesifik patogendən və epidemik vəziyyətdən asılıdır: “Ensefalitin müalicəsinin proqnozu əsasən vaxtında diaqnoz və müalicə taktikasından asılıdır. Ensefalitin ağırlaşmaları mərkəzi sinir sisteminin ocaqlı zədələnmələri nəticəsində yarana bilər. Bunlar davamlı hərəki, hissi, psixi pozğunluqlar və qicolma sindromudur”.

Gənə ensefalitindən qorunmaqda ən təsirli vasitə isə endemik ərazilərdə yaşayanların və bu bölgələrə səyahət edən insanların peyvənd olunmasıdır.



## Asta gəzin Xocalıda

Asta gəzin Xocalıda,
Qan çilənib qar üstünə,
Qar çilənib qan üstünə.
Qan çilənib ürəyimin –
Düz üstünə, zirvəsinə.
Asta gəzin bu yerlərdə,
Qulaq asın, Xocalının –
Kamanından qopan səsə,
Sızıldayan şikəstəyə.
Qulaq asın anaların –
“Balam!” – deyən naləsinə,
Dağları dağlar səsinə,
Asta gəzin Xocalıda!
Qan–yaş yağıb gözlərimdən
Anaların, fidanların
Qəbirsiz qəbri üstünə.
Qan çilənib Xocalının –
Dağlarının zirvəsinə,
Torpağının sinəsinə.
Asta gəzin, qalxırsınız –
Ürəyimin düz üstünə,
Asta gəzin Xocalıda!
Qan çilənib qar üstünə,
Qar çilənib qan üstünə.

* * *

İnanırıq gün gələcək,
Açılacaq yollarımız.
Bizimdir, bizim olacaq
Hər bir qarış torpağımız,
Yol gözləyən dağlarımız.
Gedəcəyik, sübh çağında,
Sülh Quşunun qanadında –
Qərbi Azərbaycana da,
Yurdumuz İrəvana da!
Yerindədir “Dəmir Yumruq”,
Yerindədir milli birlik!
Şükranlıqla gözləyirik,
Ali Baş Komandan bilir -
Nəyin nə vaxt olacağın,
Günün hardan doğacağın!

**Mübariz Allahverdiyev**
**17 fevral 2023**

# Riskli əməliyyat uğurla nəticələnib

**Hər bir cərrahi əməliyyatın uğuru ilk növbədə onun nəticəsi ilə ölçülür. Yəni bəlli bir müddət keçdikdən sonra narahatlıq doğuran fəsadların baş verməməsi əsas şərtdir.**



Bu amili nəzərə alan ATU-nun Neyrocərrahlıq kafedrasının dosenti, Tədris Cərrahiyyə Klinikasının neyrocərrahı Cəmil İskəndərov öz pasiyentlərini daim nəzarətdə saxlayır, onların vaxtaşırı müayinədən keçməsinə xüsusi önəm verir. O, növbəti belə müayinəni bir il əvvəl əməliyyat etdiyi pasiyentin üzərində aparıb. Rentgenoloji müayinə zamanı məlum olub ki, nəticə çox yaxşıdır. Pasiyent əməliyyatdan 2 ay sonra məktəbdə təhsilini davam etdirib. Hal-hazırda heç bir narahatlığı, ağrı-acısı, hərəkət məhdudiyyəti yoxdur. Onurğasında olan əyrilik 99 faiz düzəlib. Önə əyilmək, oturmaq, yürümək və digər fiziki hərəkətləri rahatlıqla edə bilir.

Həkimin sözlərinə görə, uşağın 12 yaşı olanda anası onun onurğasında əyrilik hiss etməyə başlayıb. Klinikaya isə keçən il müraciət olunub: “50 dərəcənin üzərində bir skolioz idi. Çiyinlərində və çanağında qeyri-simmetriya, onurğasında kobud deformasiya vardı. Bu əməliyyat riskli, eyni zamanda kosmetoloji xarakterlidir. Biz əməliyyat zamanı neyromonitordan istifadə edirik deyə, xəstədə sinir ağırlaşması baş vermədi. Çünki əməliyyat vaxtında icra edildəndə, deformasiyanı aradan qaldırmaq və maksimal effekt almaq mümkündür”.

**Oğlan uşaqları arasında rast gəlinən patologiyalardan biri cinsiyyət orqanının qüsuru ilə əlaqəli olan hipospadiya xəstəliyidir.**

# 18 aylıq körpədə cinsiyyət qüsuru aradan qaldırılıb



Tədris Cərrahiyyə Klinikasının Uşaq cərrahiyyəsi kafedrasının dosenti Vüqar Məhəmmədovun sözlərinə görə, sidik kanalının anatomik quruluşunun anadangəlmə inkişaf qüsuru olan hipospadiyaya təxminən 200 oğlan uşağından birində rast gəlinir. Müalicəsi yalnız cərrahi yolla uretranın xarici dəliyinin normal yerinə gətirilməsi, yanaşı rast gəlindiyi halda isə həm də cinsiyyət üzvündəki əyriliyin aradan qaldırılmasından ibarətdir. Cərrahi əməliyyat üçün optimal yaş ilk 6-18 aydır.

Klinikanın uşaq cərrahı V.Məhəmmədovun başçılığı ilə bu günlərdə 18 aylıq körpədə hipospadiyanın subkoronar forması ilə bağlı uretroplastika əməliyyatı icra olunub. Əməliyyat kaudal anesteziya altında, yəni uşaq dərin anesteziya almadan aparılıb: “Adətən bu əməliyyatlar bir neçə mərhələdən ibarət olur. Biz isə xəstəmizdə əməliyyatı bir mərhələ ilə yekunlaşdırdıq. Əvvəlki illərdə bu tip əməliyyatların sonradan ağırlaşması hallarına daha çox rast gəlinirdi. Lakin müasir dövrdə əməliyyat texnikasının inkişafı onun nəticəsinə çox müsbət təsir edir. 90-95 faiz hallarda əməliyyatlarımız fəsadsız keçir, 5-10 faiz hallarda təkrar əməliyyatlara ehtiyac qalır. Qüsurun formasından, dərinliyindən asılı olaraq əməliyyat müddəti 40 dəqiqə ilə 3-4 saat arasında dəyişə bilər”.

Doktor bildirir ki, el arasında “anadangəlmə sünnətli” adlandırılan bu xəstəliyə rast gəlinmə tendensiyasında son illərdə artım müşahidə olunur. Buna görə də o, valideynləri daha diqqətli olmağa, qüsur aşkarlanan kimi, həkimə müraciət etməyə çağırır.

# Böyrək daşı yaşa baxmır



**Elə xəstəliklər var ki, insanın hansı bölgədə yaşaması, həmin ərazinin iqlimi ilə çox bağlıdır. Buna misal olaraq, böyrəkdə daşların yaranmasını göstərmək olar.**

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında 78 yaşlı pasiyentdə perkutan nefrolitotripsiya əməliyyatı aparılıb və böyrək mövcud daşlardan təmizlənib. Əməliyyat icbari sığorta sistemi ilə ödənişsiz həyata keçirilib.

ATU-nun Urologiya kafedrasının baş laborantı Məmməd Məmmədovun sözlərinə görə, xəstə sağ bel nahiyəsində ağrı, ürəkbulanma və qusma, 39 dərəcə qızdırma şikayətləri ilə klinikaya müraciət edib. Məlum olub ki, bir ay öncə pasiyentin böyrəyinə stend taxılıbmış. Müayinə zamanı onun sağ böyrəyinin ləyənində ölçüsü 3 sm civarında olan mərcanvari daş aşkarlanıb. Əməliyyat vasitəsilə böyrək daşlarının çıxarılmasına qərar verilib və 1 saata qədər davam edən əməliyyat nəticəsində xəstə daşlardan azad olunub.

Urologiya kafedrasının dosenti Rəşad Məmmədov qeyd edir ki, böyrək daşının yaranması xəstənin yaşından asılı deyil: "Praktikamızda əməliyyat etdiyimiz ən kiçik xəstəmizin 2, ən yaşlısının isə 92 yaşı olub. Bu problem xəstənin hansı bölgədən olmasından daha çox asılıdır. Məsələn, böyrək daşlarına cənub bölgəsinin sakinlərində daha çox rast gəlinir. Bu, müəyyən irsi və metabolik xəstəliklərlə də bağlı ola bilir".

Digər tərəfdən, böyrəkdəki daşlar tərkibinə görə də fərqlənir: həm infeksion daşlar, həm də oksalat olur. Azərbaycanda rentgen neqativ (urat) daşlara da kifayət qədər çox rast gəlinir. Bu isə azərbaycanlıların menyusunda ət yeməklərinin çox olması ilə əlaqədardır.

Rəşad Məmmədov deyir ki, böyrək daşlarının perkutan üsulla çıxarılması əməliyyatında əsas risk qanaxma ilə bağlıdır: "Çünki böyrək qanayan bir orqandır - dəqiqə ərzində böyrəkdən 1 litrə qədər qan keçir. İkinci risk anesteziya ilə əlaqəlidir. Lakin indiyədək bizim klinikada keçirdiyimiz əməliyyatlarda hər hansı problemli situasiya yaranmayıb".

# "Limfomalar" mövzusunda təqdimat maraqla qarşılanıb

**Tədris Terapevtik Klinikanın müalicə işləri üzrə direktor müavini Fəridə Hacıyeva, klinikanın həkimləri və rezidentlərinin iştirakı ilə "Limfomalar" mövzusunda seminar keçirilib.**

Tədbirdə Hematologiya şöbəsinin rezidenti Xeyrəddinli Nazəni mövzu üzrə təqdimatla çıxış edib. Həkim limfomaların limfa düyünlərində və digər limfoid toxumalarda toplanan bədxassəli limfositlər tərəfindən törədilən və xarakterik klinik əlaməti limfadenopatiya və B simptomları olan xəstəlik olduğunu bildirib. Qeyd edib ki, limfomalar leykemiyalar ilə birlikdə qanın bədxassəli şişlərinin 2 böyük qrupundan biridir.

Xəstəliyin növlərindən danışan məruzəçi, limfomaların özünün də Hodgkin və qeyri-Hodgkin limfoması olmaqla 2 yerə ayrıldığını diqqətə çatdırıb.

N.Xeyrəddinli xəstəliyin etiologiyası haqqında da ətraflı məlumat verib. Onun sözlərinə görə, limfomaların etiologiyası tam məlum deyil: "Lakin immun sisteminin zəifliyi, immunosupressorların qəbulu, autoimmun xəstəliklərin olması, HİV, EBV ilə yoluxma kimi risk faktorları xəstəliyin yaranmasında rol oynayır. Limfomaların klinikasında əsas nəzərə çarpan limpoadenopatiya və B simptomlarının varlığıdır. Limfoadenopatiya əsasən boyun, qoltuqaltı, qasıq nahiyəsində ağrısız, şişmiş limfa düyünləri şəklində müşahidə olunur. B simptomlarına isə səbəbsiz arıqlama (bədən çəkisinin 10%-dən artığı), səbəbi açıqlana bilməyən qızdırma və gecə tərləmələri daxildir".



Limfomaların diaqnostikası haqqında məlumat verən həkim, burada ən dəqiq və vacib üsulun limfa düyününün ekzisional biopsiyası olduğunu bildirib. Qeyd edib ki, bundan əlavə, anamnez, fizikal, instrumental və laborator müayinələrdən də geniş istifadə olunur.

# Rezident məruzə oxuyub

**Tədris Terapevtik Klinikada "Polinevropatiyalar, Guillian Barre sindromu" mövzusunda seminar keçirilib. Tədbirdə klinikanın müalicə işləri üzrə direktor müavini Fəridə Hacıyeva, klinikanın həkimləri və rezidentləri iştirak ediblər.**



Məruzə ilə çıxış edən klinikanın Nevrologiya şöbəsinin rezidenti Jalə İbrahimova mövzu haqqında ətraflı məlumat verib. Bildirib ki, polinevropatiyalar - periferik sinirlərin eyni etioloji və patafizioloji proseslərə bağlı olaraq birlikdə, yayılmış şəkildə zədələnməsinə bağlı ortaya çıxan klinik haldır.

Ən çox yayılmış səbəbi şəkərli diabetdir. Bundan başqa, infeksion, autoimmun xəstəliklər, dərmanlar, toksik maddələr, cərrahi əməliyyat və s. də səbəb ola bilər.

"Guillian-Barre sindromu" haqda danışan J.İbrahimova qeyd edib ki, bu sindrom autoimmun demielinizasiya ilə gedən və iflic ilə nəticələnə bilən polinevropatiyaların geniş yayılmış formasıdır. Bunun əsas səbəbi tənəffüs yolu və qastrointestisial infeksiyalar, cərrahi əməliyyat, karsinomadır. Onun sözlərinə görə, klinik əlamətlər infeksiyaya yoluxduqdan 1-3 həftə sonra görülməyə başlayır: "İlk əlaməti, əsasən aşağı ətrafdan başlayıb yuxarı ətrafa doğru yayılan əzələ zəifliyidir. Əl və ayaqlarda uyuşma, paresteziyalar, bel, kürək ağrıları, arefleksiya, bəzən təzyiqin artıb-azalması, sidik qaçırma, tərləmənin azalıb-artması kimi avtonom sinir sistemi əlamətləri də müşahidə olunur".

Diaqnostikasında laborator, elektromioqrafiya zamanı (EMQ) sinir ötürücülüyünün pozulması, lumbar punksiya zamanı albuminositolojik dissosiasiyanın olması və sinir biopsiyasına əsasən diaqnoz qoyulduğunu deyən məruzəçi, müalicənin dəstəkləyici terapiya, immunoterapiya (plazmafarez, İVİG), reabilitasiyadan (fizioterapiya) ibarət olduğunu vurğulayıb.

**Allah rəhmət eləsin!**

I Daxili xəstəliklər, III Daxili xəstəliklər, Anesteziologiya və reanimotologiya kafedralarının əməkdaşları dosent

**Fətulla Əlimərdanovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər, Şüa diaqnostikası və terapiyası kafedralarının əməkdaşları Yoluxucu xəstəliklər kafedrasının dosenti Sədrəddin Atakişizadəyə anası

**Minayə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya, Əczaçılıq texnologiyası və idarəçiliyi, Şüa diaqnostikası və terapiyası kafedralarının əməkdaşları Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının assistenti Səyyəddin Atakişizadəyə anası

**Minayə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Etibarsız sayılır**

Kia Saeidin (qrup 418A4b) tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Tələbə dekan

**Azərbaycan Tibb Universitetində tələbə dekanların fəaliyyəti böyük əhəmiyyətə malikdir. Onlar Elmi şuralarda iştirak edir, bu haqda tələbələri məlumatlandırır, onların şikayət və təkliflərini rəhbərliyin diqqətinə çatdırır, tələbə yoldaşlarının üzləşdikləri problemlərin tez bir zamanda aradan qaldırılması üçün dekanlıqla əlaqə qurur və digər zəruri işləri həyata keçirirlər.**

# "İctimai və sosial işlərdə aktivlik təhsilimə mane olmur"



Universitetimizin Stomatologiya fakültəsinin tələbəsi Şahverdi Mirzəyev 3-cü kursdan tələbə dekan kimi fəaliyyət göstərir. İstər orta məktəbdə oxuduğu illərdə, istərsə də universitet həyatında fəallığı ilə seçilib: "Orta məktəbdə ictimai və sosial işlərdə həmişə aktiv olmuşam. Bunlar heç zaman təhsilimə maneçilik törətməyib. Əksinə, həvəslə öz üzərimdə işləməyə şərait yaradıb. Bəlkə də elə buna görə tam orta təhsilimi fərqlənmə ilə bitirmişəm".

Şahverdi tələbə dekan olanadək Tələbə Həmkarlar İttifaqı Komitəsinin fakültə üzrə sədri kimi fəaliyyət göstərib. Çoxsaylı tədbirlərin təşkil olunmasında aktivlik nümayiş etdirib: "Tələbə dekan olaraq Böyük Elmi Şurada, fakültə Elmi şuralarında iştirak edirəm. Orada səsləndirilən fikirləri tələbələrin diqqətinə çatdırıram. Bunun üçün vatsap qrupu da yaratmışam. Tələbələrin problemləri ilə yaxından maraqlanıb, tədbir görülməsi üçün rəhbərliyə müraciət edirəm. Eyni zamanda, bir sıra konfranslarda elmi məqalələrlə çıxış etmişəm".

Elmi fəaliyyətini də inkişaf etdirmək niyyətində olan tələbə dekan ağız və üz-çənə cərrahiyyəsi fənnindən elmi iş götürüb. Bakalavr pilləsini bitirdikdən sonra isə cərrahi stomatologiya ixtisası üzrə təhsilini rezidentura pilləsində davam etdirməyi düşünür.

Ş.Mirzəyev tələbələrin ən çox imtahanlarla bağlı narahat olduqlarını deyir: "İmtahanlar ərəfəsində narahatlıqlar çoxalır. Kimin nə sualı olursa, dekanlıqdan öncə bizimlə əlaqə yaradır. Hamısını yoluna qoymağa çalışıram. Universitetimizə yeni qəbul olunanlar üçün məlumat xarakterli qruplar da açmışdım. Sənəd qəbulunda problemlə üzləşməmələri məqsədilə. Tələbə dekan kimi dekanlıqda olur, dekan və dekan müavinlərinə kömək edirəm. Tədbirlərdən başqa, elmi və inzibati işlərlə də məşğul oluram".

Şahverdi bu tədris ilində də fakültə və Böyük Elmi şuralarda iştirak edib. Böyük Elmi Şurada səsləndirilən məsələlər bilavasitə tələbələrlə bağlı olub. Rektor, professor Gəray Gəraybəylinin məsələlərin həlli ilə bağlı göstərişlərini tələbələrin nəzərinə çatdırıb.

Gələcək planları böyük olan Ş.Mirzəyev stomatologiyada müasir innovasiyalar mövzusunda elmi konfrans təşkil etmək niyyətindədir.

**Q.ABDULLAYEV**

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0004
Sayı 800